# Uşaq Klinik Xəstəxanası 9 ayda 8 minədək xəstə qəbul edib



**Səhiyyə Nazirliyinin Ə.F.Qarayev adına 2 saylı Uşaq Klinik Xəstəxanasında tibb müəssisəsinin bu ilin 9 ayı ərzində fəaliyyətinə həsr olunmuş «dəyirmi masa» keçirilib.**

Nazirliyin mətbuat xidmətindən verilən məlumata görə, tədbirdə 1960-cı ildən fəaliyyət göstərən, 2009-2010-cu illərdə əsaslı təmir və yenidənqurma işləri aparılan xəstəxananın fəaliyyətindən danışılıb. Bildirilib ki, 200 çarpayılıq xəstəxanada 18 yaşa kimi xəstələrə müayinə və müalicə işi dünya standartlarına uyğun təşkil edilib.

Tibb müəssisəsinin somatik korpusunda Pediatriya, LOR və gündüz şöbələri fəaliyyət göstərir. İnfeksion xəstəliklər korpusuna 9 boksdan ibarət Neyroinfeksiya, qarışıq infeksiyalar üçün nəzərdə tutulmuş I yoluxucu xəstəliklər, mədə-bağırsaq profilli xəstələr üçün II yoluxucu xəstəliklər və hepatitli xəstələr üçün III yoluxucu xəstəliklər şöbəsi daxildir. Bundan başqa, səhiyyə ocağında Yenidoğulmuşların patologiyası şöbəsi, iki Reanimasiya və intensiv terapiya şöbəsi, müxtəlif qrup xəstəliklər üzrə ayrı-ayrı qəbul şöbələri, müasir aparatura ilə təchiz edilmiş müayinə kabinetləri, lazımi avadanlıqlarla təmin olunmuş laboratoriyalar və s. mövcuddur.

Məlumat verilib ki, 2016-cı ilin yanvar-sentyabr ayları ərzində xəstəxanaya 7998 xəstə qəbul olunub və lazımi müalicə alıb.